UOT 81`28
https://doi.org/10.59849/2311-8482.2024.1.82

MƏLAHƏT MÜRSƏLOVA *

# MÜASIR DİLÇİLİKDƏ YENİ TƏMAYÜLLƏRƏ DAİR

*Dünyada gedən proseslər digər humanitar elm sahələri kimi dilçiliyə də birbaşa təsir göstərir. Elm sahələri qarşısında qoyulan yeni tələblər, digər tərəfdən inkişafın fərqli aspektləri dilçilikdə də bu tələblərə cavab verən yeni tendensiyaların, fərqli təmayüllərin yaranmasına gətirib çıxarır. Həmin yeni tendensiyalar və prinsiplər isə mənbələrdə fərqli şəkildə təqdim edilir. Bəzi alimlər bu təmayülləri inteqrativlik, kommunikativlik, diskursivlik, antroposentriklik və s. kimi dəyərləndirir. Bəzi mənbələrdə isə belə dəyişkən və yeni təmayüllərin dilçiliyin daxilində müstəqil istiqamətlərin formalaşdırdığını göstərilir. Bu sahələr sosiolinqvistika, kopküter dilçiliyi, diskursologiya, korpus dilçiliyi və koqnitiv dilçilik kimi fərqləndirilir. Məqalədə müasir dilçilikdəki yeni təmayüllərə, yeni istiqamətlərə, fərqli tendensiya və prinsiplərə nəzər yetirilir.*

***Açar sözlər:*** *dilçilik, tendensiya, nəzəriyyə, inkişaf, kommunikativlik, inteqrativlik,sosiolinqvistika*

## Giriş

XX əsrin sonu XXI əsrin əvvəllərində humanitar elmlərin digər sahələrində olduğu kimi, dilçilik elmində də dövrün tələblərinə cavab verəcək təmayüllər formalaşmağa başlayır. İlk növbədə, dünyanı bürümüş və qaçılmaz olan qloballaşma elmdə inteqrativliyi, multidissiplinar yanaşmanı tələb edir. Bu isə elmlərin inteqrasiyasını, sintezini nəzərdə tutur. Təsadüfi deyil ki, elmlərarası inteqrasiya və elmlərarası sintez humanitar elmlərin içrisində ən çox dilçilik sahəsində müşahidə olunur. Dil özü mürəkkəb sistemə malik elm sahəsi olduğu üçün digər elm sahələrinin nailiyyətlərindən birbaşa istifadə etmək fürsətinə malikdir. Bu elm sahələri içərisində genetikanı, antropologiyanı, neyrolinqvistikanı, psixologiyani, fəlsəfəni, bilogiyanı göstərmək mümkündür. Bu elmlər arasındakı hər hansı bir maneələrin aradan qaldırılması isə, son nəticədə elm sahəsinin inkişafına təkan verir. XX əsrin sonu XXI əsrdə dilçilik elmi artıq əvvəllər öz tədiqat sahəsinə daxil olmayan, maraq dairəsində olmayan sahələri, problem və mövzuları də tədqiq etməyə başladı. Çağdaş dilçiliyin tədqiqat alanına artıq işarə sisteminin tələblərinə və nəzəriyyəsinə cavab verən, insan təbiəinin, mentalitetin, maddi və mənəvi mədəniyyətin dərin semantik qatlarını açmağa imkan verən hər bir problem daxil edilir.

## Əsas təhlil

Dilçilik, bir elm sahəsi kimi formalaşmağa başladığı ilkin dövrlərdə qarşısına əsas məqsəd kimi sistemliliyi və strukturluğu və funksionallığı qoyurdusa, XXI əsrdə artıq həmin prinsiplərə bir sıra yeni prinsiplər - inteqrativlik, antroposentrlik, diskursivlik, kommunikativlik və s. də əlavə olunmuşdur. Bu yeni əlavə olunmuş prinsiplər, bir qayda olaraq, müasir tədqiqatların tələblərinə cavab verir, bir-biri ilə qarşılqlı əlaqədə olur və bir-birini şərtləndirir. Bu yeni tələblərin əlavə edilməsi və tətbiq edilməsi o fikri bir daha sübut etdi ki, linqvistik kateqoriyaların tədqiqi, dilin öyrənilməsi koqnitiv prinsiplərə müraciət edilmədən natamam qalacaqdır. Bundan əlavə, antroposentrik prinsip söyləyicinin, yəni dil daşıyıcısının tədqiqatın mərkəzində dayanmasını tələb edir. İnsan faktorunun tədqiqatın mərkəzində dayanması, onun nitqinin monoloq və dialoq formalarında təzahürü isə son nəticədə kommunikativlik prinsipinin həyata keçirilməsinə gətirib çıxarır. İnsanların dialoqu isə mədəni və diskursiv prinsplərin işləməsinə səbəb olur. Gördüyümüz kimi, sadəcə bir antroposentrik təmayül və ya yanaşma neçə-neçə yeni prinsiplərin yaranmasına və tətbiqinə yol açır.

Bununla yanaşı, inteqrativlik birinci növbədə, müxtəlif elm sahələrində əldə edilən biliklərin diqqətdən kənarda qalmaması, əksinə, fərqli problemlərin həllində birbaşa istifadə olunmasına şərait yaradır. İkinci isə, inteqrativlik dil, cəmiyyət, mədəniyyət, şüur kimi fenomenlərin əks olunduğu tədqiqat problemlərinin çoxyönlü olmasında özünü göstərir. Bu, konkret bir problemin həllində çoxyönlülüyü təmin edir və eyni zamanda, bu konkret problemdən əlavə digər problemləri də həll etməyə imkan verən məlumatların əldə edilməsinə kömək edir.

Müasir dilçilik bir sıra elmlərlə - psixologiya, antropologiya, mədəniyyətşünaslıq, sosiologiya, mikrobiologiya, genetika və insanı və onun dilini öyrənən digər elmlərlə inteqrasiyaya can atır.

İnteqrativlik. Çağdaş dövrümüz yalnız humanitar elmlərin bir-biri ilə deyil, həm də humanitar elmlərin təbiət elmləri ilə inteqrasiyasının daha yüksək səviyyədə həyata keçirilməsini tələb edir. Bu inteqrasiyanın baş tutması üçün artıq ilkin şərtlər də formalaşmışdır: insan nitqinin kvant mexanikası ilə əlaqəsi barədə artıq ilk nəzəriyyələr və fərziyyələr irəli sürülmüşdür. Elmlər arasındakı inteqrasiya prosesi XX əsrdən dilçilərin diqqətini cəlb etməyə başlamışdır. Əlbəttə, ilkin mərhələdə bütün başqa yeniliklər kimi, bu proses

də birmənalı qarşılanmamış, tərəfdarlar və əleyhidarlar toplamağa müvəffəq olmuşdur. Bu prosesin əleyhidarı olan dilçi-alimlər öz tədqiqatlarının çərçivələrindən kənara çıxmamaqda və cəsarətsizlikdə ittiham olunmuşlar. Tərəfdarlar isə bu prosesin – inteqrasiyanın qaçılmaz olduğunu bildirmişlər.

Əslində artıq XX əsrin sonlarından formalaşmağa başlayan bir sıra sahələr prosesin qaçınılmaz olduğunu əyani şəkildə göstərməkdədir. Belə sahələrə linqvokulturologiya, linqvokonseptologiya, hüquqi dilçilik və s. kimi dilçilik sahələrini misal gətirə bilərik ki, onların hər biri təbiəti və mahiyyəti etibarilə inteqrativdir. Bu səbəbdən çağdaş dönəmin çağırışlarını qəbul etmək inteqrativliyin, fənlərarası-multidissiplinarlığın, transdissiplinarlığın inkişafını qəbul etmək və tətbiq etmək deməkdir ki, bu da tədqiqatların inkişafına güclü təkan verərək son nəticədə elmlər arasında informasiya maneələrinin silinməsinə səbəb olacaqdır.

**Antroposentrizm.** Hələ XX əsrin sonunda dilçiliyin tədqiqat metodlarında müsbət qəbul edilən bir dəyişiklik baş verdi - dilin birbaşa insan, mədəniyyət, insan təfəkkürü ilə əlaqəli öyrənilməsinin vacibliyi irəli sürüldü. Bu barədə ilk təklifi isə görkəmli dilçi-alim V.Humboldt öz əsərlərində verdi (1, 70) və öz dövrünün dilçiləri tərəfindən onun bu təklifi birmənalı şəkildə qarşılandı və qəbul edildi. Çünki V.Humboldt göstərdi ki, dilin təbiətini dərk etmək və izah etmək yalnız insanın dünyadakı çoxtərəfli fəaliyyətini dərk etməklə mümkün ola bilər. Qeyd edək ki, V.Humboldtan əvvəl də dilin insanla birbaşa əlaqəsi barəsində yazılar meydana çıxmışdır. Məsələn, fransız dilçisi Emil Benvenist 1974-cü ildə işıq üzü görmüş "Ümumi dilçilik" kitabında bu məsələyə toxunaraq belə bir fikir irəli sürmüşdür ki, dil insan ölçülərinə və standartlarına uyğun yaradılmışdır və bu da dilin özünün strukturunda əks olunur. Dil də buna uyğun şəkildə öyrənilməlidir (2, 15).

Öz dövrünün heç bir dilçilik məktəblərinə qoşulmayan bu alim öz elmi yaradıcılığında strukturalizm ideyaları ilə müqayisəli-tarixi tədqiqatları birləşdirməyə cəhd etmişdir. Bu cəhtdən o klassik komparavistika və strukturalistika məktəbinə yaxnlaşşasa da, onlarda fərqli mövqe tutmuşdur. O, dilin strukturunun və inkişafının tədqiqi sahəsinə mədəniyyət konseptlərinin daxil edilməsini təklif etmişdir. Bu baxımdan Benvenistin əsərlərinin etnolinqvistika və koqnitiv dilçilik istiqamətlərinin əsasının qoyulmasında mühüm rol oynadığını söyləyə bilərik.

Qeyd edək ki, E.Benvenistin bu fikri XX əsrin əvvəlləri alman fəlsəfəsində "insan xisləti dildə saklıdır" şəklində əks olunmuşdur. Rus akademiki V.Alpatov tədqiqatlarında qeyd edir ki, antroposentrizmin dilçilikdə yeni bir hadisə deyil və erkən dilçilik ənənələrində - hind, ərəb, çin, yapon və b. mədəniyyətlərdə bunun işartıları artıq mövcud olmuşdur (3, 15).

Dilin antroposentriklik fikri müasir dilçilikdə aparıcı mövqelərə çıxmışdır. Çağdaş dönəmdə linqvistik tədqiqatların məqsədini artıq sadəcə olaraq dil sistemi vahidlərinin müxtəlif aspektlərdən tədqiq etmək təşkil etmir, çünki dil insan tərəfindən və insan cəmiyyətində yaranmış mürəkkəb bir hadisədir. O, həm sistemdir həm də sistemdən kənardır.

Antroposentrik yanaşma bütün tədqiqatlarda insanı birinci yerə qoyur və dil insanın əsas xüsusiyyəti və onun ən mühüm komponenti hesab olunur. İnsan intellekti, hətta insanın özü də, dildən kənarda mövcud ola bilməz. O səbəbdən dilə antroposentrik anaşma dilçilkdə hər zaman son dərəcə perspektivli sayılır.

**Mədəniyyətyönümlülük**. Müasir dilçilikdə bir tendensiya kimi mədəniyyətyönümlülük də nəzərə çarpır. Dilin mədəniyyətlə qarşılıqlı əlaqədə öyrənilməsi fikrinə V.Humboldtun, A.Potebnyanın, A.Afanasyevin, A.Brüknerin, XX əsin sonlarında isə V.İvanovun, V.Toporovun, N.Tolstoyun və b. əsərlərində rast gəlinir. Bu alimlərin əsərlərindəki tədqiq olunan problemlə bağlı fikirləri ümumiləşdirsək, "dil mədəniyyətlə birbaşa əlaqəlidir, dil mədəniyyətin daxilində böyüyür, inkişaf edir və bu mədəniyyətin ifadəçisinə çevrilir". Doğrudan da, dilin daşıyıcısı olan hər bir insan mədəniyyətdən təcrid olunmuş şəkildə qəbul edilə bilməz. Bundan əlavə, dil eyni zamanda mədəniyyətin yaradılması, inkişafı və qorunması vasitəsidir. Dilin köməyi ilə maddi və mənəvi mədəniyyət əsərləri yaradılır. Mədəniyyət də, öz növbəsində, dil daşıyıcısının düşüncəsini formalaşdırır, linqvistik kateqoriyalar və anlayışlar formalaşdırır. Beləliklə, dil və mədəniyyət hər zaman bir-biri ilə qırılmaz surətdə bağlı olur.

**Diskursivlik.** Son illər diskurs problemi dilçilik, sosiologiya, fəlsəfə, politologiya, psixologiya, mədəniyyətşünaslıq və s. elmlərdə getdikcə aktuallaşaraqqabaqcıl mövqeyə keçməyə müvəffəq olmuşdur. Diskursa dil, mədəniyyət və cəmiyyət arasındakı əlaqələrin ifadə olunduğu sahə kimi yanaşırlar. Diskurs həm mədəniyyəti, həm də dili yaradan, reallaşdıran və dəyişdirən hadisədir. Müasir yanaşmalara görə, diskurs mürəkkəb kommunikativ hadisədir ki, onun əhatə dairəsinə mətnlərlə yanaşı, mətnin başa düşülməsi üçün zəruri olan ekstralinqvistik amillər də - dünya bilikləri, məlumatlar, dil daşıyıcılarının münasibəti və s. daxildir. Diskurs barəsində söylənilənləri ümumiləşdirərək, diskursun kommunikativ hadisə kimi konseptuallaşdırılması üçün aktual olan aşağıdakı fikirləri irəli sürmək mümkündür. Əvvəla, diskurs müəyyən kontekstdə insanların şifahi və zehni fəaliyyətinə - mədəni, psixoloji və siyasi fəaliyyətinə əsaslanan sosial kommunikasiya vasitəsidir (4, 42). Daha sonra, diskurs şifahi şəkildə həyata keçirilən ünsiyyətdir, lakin qeyri-nitq vasitələrini də - jest, mimika, rəsm, musiqi və s.-ni də əhatə edir. Buna görə də, diskurs təkcə verbal deyil, həm də sosial kontekstdə qeyri-verbal psixi-kommunikativ fəaliyyət hesab edilməlidir. Hər hansı fəaliyyət

kimi, diskursiv fəaliyyət də məqsədyönlüdür və müzakirə subyektlərinin qeyri-verbal motivləri ilə müəyyən edilən qlobal (dominant) məqsədə çatmaq üçün zəruri olan insanlar arasında qarşılıqlı əlaqənin qurulmasına və saxlanmasına yönəldilmişdir.

Diskurs interaktiv ünsiyyət hesab edilir. Diskursun məzmunu söyləyici və dinləyici tərəfindən birlikdə yaradılır. Diskursun əsas məqsədinin həyata keçirilməsi diskurs iştirakçıları - subyektləri arasında qarşılıqlı əlaqənin nəticəsində mümkün olur. Bu səbəbdən də nitq prosesi diskurs subyektləri arasında qarşılıqlı əlaqə kimi görünür. Diskurs dialoq və ya monoloq şəklində reallaşır. Mətnsiz diskurs mövcud ola bilməz.

**Nəticə**

Beləliklə, qeyd edək ki, dilin tədqiqi təfəkkür kateqoriyalarına, mədəniyyət kateqoriyalarına, şüur konseptinə istinad olunmadan tam olmur və dilin öyrənilməsi geniş və sistemli bir şəkildə aparılmalıdır. Yuxarıda tədqiq etdiyimiz prinsip və cərəyanların tətbiq edilməsi nəticəsində dilçilik elmi əvvəlki əhatə dairəsindən kənarda qalmış sahələri, mövzuları və problemləri araşdırmağa başlamışdır.

## ƏDƏBİYYAT

1. Гумбольдт, В. Избранные труды по языкознанию. Москва: Прогресс, 1984, 397 с.
2. Бенвенист, Э. Общая лингвистика. Москва: Прогресс, 1974, 447 с.
3. Алпатов, В.М. Об антропоцентричном и системоцентричном подходах к языку // Вопросы языкознания. 1993, № 3, с.15-26.
4. Степанов Ю.С. Альтернативный мир, дискурс. Факт и принцип Причинности // Язык и науки конца XX века: сборник статей. Москва: 1995, с. 35-73.

***Azərbaycan Dövlət Dəniz Akademiyası**
***filologiya üzrə fəlsəfə doktoru***
*e-mail:* ***dilchilik2001@gmail.com***

**Malahat Mursalova**

## ABOUT NEW TRENDS IN MODERN LINGUISTICS

The processes taking place in the world have a direct impact on linguistics, like other fields of humanities. The new requirements set before the fields of science, on the other hand, the different aspects of development lead to the emergence of new trends and different trends that meet these requirements in linguistics. Those new trends and principles are presented differently in the sources. Some scholars estimate these tendencies as integrativity, communicativeness, discursiveness, anthropocentricity and so on. However, some sources indicate that such variable and new trends form independent directions within linguistics. These areas are distinguished as sociolinguistics, computer linguistics, discoursal, corpus linguistics and cognitive linguistics. In the article the new trends, new directions, different trends and principles in modern linguistics are looked through.

**Keywords:** *linguistics, tendency, theory, development, communicativeness, integrativity, sociolinguistics*

**Малахат Мурсалова**

## О НОВЫХ ТЕНДЕНЦИЯХ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

Процессы, происходящие в мире, оказывают непосредственное влияние на языкознание, как и на другие области гуманитарных наук. Новые требования, предъявляемые к областям науки, с другой стороны, различные направления развития приводят к возникновению новых тенденций и направлений, отвечающих этим требованиям, в языкознании. В источниках эти новые тенденции и принципы представляются по-разному. Некоторые ученые называют эти тенденции интегративными, коммуникативными, дискурсивными, антропоцентрическими и т.д. В некоторых источниках показано,

что такие меняющиеся и новые тенденции образуют самостоятельные направления внутри языкознания. Эти области различаются как социолингвистика, компьютерная лингвистика, дискурсология, корпусная лингвистика и когнитивная лингвистика. В статье рассматриваются новые тенденции, новые направления, различные течения и принципы в современном языкознании.

**Ключевые слова:** *лингвистика, направление, теория, развитие,*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 09.01.2024**
**Son daxilolma tarixi:15.02.2024**